## ƏZİZ CİYƏRPARƏMİZ ARİF

Səni, ailəmizin gül balasını dünyaya göz açması münasibətilə səmimi qəlbdən təbrik edir, öpüb bağrımıza basırıq. Sənin şaqraq gülüşün hər birimizin ömür payı, sevinc, fərəh mənbəyinə çevrilir. Arzu edirik, ömür yolun çinar əzəmətli, Kəpəz vüqarlı, Göygöl dəyanətli, cəsarətli, qeyrətli övlad olasan.

Səni hər an sevib, oxşayan nənən Sevda, Çinarə anan, Natiq atan.

## ARİFİM

Yaşat bu arzumu məhəbbət ilə.
Dünyaya göz açan nəvəm, Arifim.
Hər səhər, hər axşam, birgə əl-ələ
İstərəm səninlə gəzəm Arifim.

Qurbanam ay bala, qurban, o günə
Böyüyüb xalqına xeyir verəsən.
Qoru torpağını, yarı elinə,
Həyatda hər zaman xoş gün görəsən.

Daima qorusun Ulu Yaradan,
Daima qorusun nəzərdən səni.
Uzaq ol, Arifim, xəta-bəladan,
Görmə bu dünyada qəmi-qüssəni.

Tez böyü, məşəl saç, sən gur odunla,
Doğma torpağında, doğma elində.
Yaşat bu soyadı, yaşat bu Adı,
Ucal əməlinlə xalqın dilində.

## İBADƏTİMSƏN

*(Xatiri yanımda əziz olan qələm həmkarım İbadət xanıma ithaf edirəm)*

Çağlayan qələmin yazırsa qəzəl,
Bayatın, şeirin gözəldi, gözəl.
Çeşmənin gözüsən söyləyim əzəl,
Sevərlər qəlbində arzu-diləksən,
Nigarım, Həcərim, İbadətimsən!

Tanrıdan gəlibdi bu qismət-yazı,
Qoru əlindəki qələm, kağızı.
Çiçəkli dağların İbadət qızı,
Qayalar qoynunda bitən çiçəksən!
Nigarım, Həcərim, İbadətimsən!

Qismət taleyində yenilməz bir dağ,
Ömür-gün yarındı arxanda dayaq.
Sizi ayırmasın qoy uca Allah,
Göydən yerə enən huri mələksən,
Nigarım, Həcərim, İbadətimsən!

Böyük xəzinədir o, taxtı-tacın,
Sönməsin heç zaman isti ocağın.
Qalmasın boşluqda küncün-bucağın,
Sən şair Salehin vuran qəlbisən,
Nigarım, Həcərim, İbadətimsən!

**Ofelya MƏDƏTQIZI,**
**I qrup əlil.**
**Prezident mükafatçısı**